# Azərbaycan etnoqrafiya elmində toxuculuğun tədqiqi



Azərbaycan etnoqrafiya elmində sənətkarlığın tədqiqi baxımından XX əsrin II yarısı xüsusilə diqqəti cəlb edir. Məhz ötən əsrin II yarısından genişlənən arxeoloji qazıntılar, etnoqrafik ekspedisiyalar sənətkarlığın öyrənilməsi üçün kifayət qədər faktiki material ortaya çıxarmışdır. Azərbaycanda sənətkarlığın geniş tədqiqi ilk növbədə arxeoloji qazıntıların genişlənməsi ilə bağlıdır. Bu baxımdan arxeoloji tədqiqatların artması ilə əlaqədar olaraq sənətkarlıqla bağlı araşdırmaların məhz XX əsrin ikinci yarısından başlayaraq inkişaf etdiyini, yeni məzmun aldığını iddia etmək mümkündür. Azərbaycan etnoqrafiyasında sənətkarlığın daşişləmə, dulusçuluq, ağacişləmə, metalişləmə, dəriçilik, toxuculuq, tikmə sənəti sahələri geniş öyrənilmişdir.

Azərbaycan etnoqrafiya elmində toxuculuq sahəsi geniş şəkildə tədqiq olunmuşdur. Toxuculuq sənəti qədimliyi və geniş çeşidi ilə seçilir. İndiyədək ölkəmizdə toxuculuğun həsirçilik, kətançılıq, şalbaflıq, xalçaçılıq, bəzzazlıq, şərbaflıq kimi ənənəvi sahələri yaranmışdır. Bu sahə əsasən sənətşünaslıq baxımından öyrənilsə də, məhz XX əsrin ikinci yarısında Azərbaycan etnoqrafiya elmində toxuculuğa aid tədqiqatların sayı artmış, həmin əsərlərdə toxuculuğun ayrı-ayrı növləri, onların xüsusiyyətləri, yayılması araşdırılmışdır. Toxuculuğa aid əsərləri xronoloji ardıcıllıqla tədqiq etdikdə əsərlərdə toxunulan sahələrin sayının artdığı və daha dərin araşdırmaların aparıldığı üzə çıxır. Alimlər bu sahəni lokal ərazilər, müxtəlif növlər üzrə öyrənməklə Azərbaycan etnoqrafiyasının bütövlüyü çərçivəsində baxmışlar.

H.Quliyev ənənəvi parça istehsalının bir növü olan bəzzazlığın pambıqçılıqla sıx əlaqəsini və bu sənət növündə boyama, qələmkarlıq və ya basma naxış üsulundan geniş istifadə edildiyini yazır. Müəllif Gəncə, Nuxa, Naxçıvan, Basqal və s. yaşayış məskənlərində basma naxışların parçalara xüsusi yastı qəliblərlə köçürüldüyünü, həmin qəlibləri parçalara naxış vuran karxanalarda qələmkarların hazırladığını göstərir. Əsasən armud ağacından hazırlanan qəliblər işlədilmə yerlərinə görə fərqlənirdilər. Bəziləri kəlağayı, bəziləri başqa yaylıqların haşiyəsinə, bəziləri küncələrinə və ya ortalarına vurulurdu. H.Quliyev çiçək haşiyə, quyruq haşiyə, ürəkgülü, künc paxlava, badam buta, göbək dövrəsi, şah buta və ya balaca buta adlı qəliblər haqqında məlumat verir (7, s.819-824). Məqalədə toxuculuq sənəti xammalın xarakterinə görə pambıq parça istehsalı, ipək parça toxuma və yun məmulatı hazırlama kimi növlərə bölünür. Müxtəlif arxeoloji faktlara, Kültəpədə tapılan iyə, qədim həvəngdəstədəki qırmızı rəngə əsaslanaraq Azərbaycanda ipəyirmə və onun əsasında meydana çıxan toxuculuq sənətinin e.ə. IV-III minillikdən inkişaf etdiyini, parça rəngləmənin də həmin dövrə aid olduğunu vurğulayır.

H.Quliyev "Azərbaycanda toxuculuq sənəti haqqında" məqaləsində yazır ki, Azərbaycanda natural təsərrüfatın mövcudluğu və şəhərlərin mühüm karvan - ticarət yollarının üzərində yerləşməsi ixtisaslaşma yaratmışdır: "XVII əsrdə və XVIII əsrin əvvəllərində Azərbaycan şəhərləri içərisində sənət növləri üzrə qruplaşma gedirdi. Məsələn, Gəncə, Qəbələ və Bərdə ipək parça hazırlanması işində, Bakı neft istehsalında, Beyləqan dulusçuluqda, Şəki və Şabran yun məmulatı və xüsusilə, xalçaçılıqda, Dərbənd kətan parça hazırlamaqda, Təbriz çit hazırlanması sənətində tanınardı" ( 8, s.45). Məqaləsinin üçüncü bölümündə H.Quliyev göstərir ki, Azərbaycanda toxuculuq sənətinin bəzi növləri öz inkişafını b.e.ə. IV-III minillikdən başlamış və orta əsrlərdə yüksək inkişaf mərhələsinə çatmışdır. Alim ikinci səbəb kimi ölkəmizin ərazisində çox qədim zamanlardan toxuculuğun maddi bazası olan heyvandarlığın, pambıqçılıq və ipəkçiliyin xalqımızın təsərrüfat həyatında geniş yer tutmasını bildirir.

XX əsrin 60-cı illərinədək Azərbaycanda toxuculuq sənətinin meydana çıxması və sonrakı inkişaf tarixi haqqında geniş məlumat verən nəinki monoqrafik əsər, hətta iri həcmli məqalə belə yazılmamışdı. T.Bünyadovun qədim zamanlardan eramızın XII-XIII əsrlərinədək toxuculuq sənətinin inkişaf tarixini öyrənməsi maraq kəsb edir. "Qədim Azərbaycanda toxuculuq və keçəçiliyin inkişaf tarixinə dair" məqaləsində təkcə Azərbaycan deyil, Qafqaz, eləcə də qədim Şərq ölkələrinin materiallarından imkan daxilində istifadə edilən məqalədə müəllif bildirir ki, maldarlığın və xüsusilə qoyunçuluğun qədimdə geniş yayılması və inkişafı toxuculuq sənəti üçün əsas xammal mənbəyi yaratmışdır. Əsərdə toxuculuq haqqında düzgün təsəvvür yaratmaq üçün bu sənətlə əlaqədar bütün iş proseslərinin tam təsvirini, əl ilə yunyolma, tikanlar vasitəsi ilə ipin əyrilməsi prosesi, cəhrələrin meydana çıxması, yun və başqa məmulatların boyanması, boya alınması qaydaları, toxuculuq dəzgahları (yerxanası), xanaların quruluşu, keçənin hazırlanması, istifadəsi və s. haqqında məlumat verilir. O qeyd edir ki, Azərbaycanda toxuculuq və onun əsas sahələrindən birini təşkil edən xalçaçılıq təxminən tunc dövründən başlayaraq inkişaf etmiş, zaman keçdikcə əhalinin məişətində xüsusi rol oynamışdır (1, s.80-106). T.Bünyadov yundan hazırlanan müxtəlif materialların ən sadəsi və nisbətən geniş işlədilənlərdən birinin keçə olduğunu bildirir. Alim keçənin hazırlanmasının heyvanların əhliləşdirilməsindən əvvəl başlandığını vurğulayır. Göründüyü kimi sənətkarlığın mühüm sahəsi olan toxuculuğu Azərbaycan etnoqrafları təsərrüfat məişəti ilə bağlı şəkildə öyrənmişlər.

Şəki zonasının maddi mədəniyyətini tədqiq edən S.Vahidova ipək parça istehsalını öyrənmişdir. Etnoqraf 1974-cü ildə yazdığı məqalədə Şəki zonasının materiallarına əsaslanaraq, ipəyin keyfiyyətinə təsir göstərən bəzi faktorları üzə çıxarmışdır (3, s. 41-43). S.Vahidovanın ən maraqlı əsərlərindən biri konkret ipək məhsuluna-kəlağayıya həsr etdiyi əsərdir. Bu əsərdə etnoqraf Azərbaycan qadınlarının milli baş örtüyü olan kəlağayının xüsusiyyətlərini araşdırır (4, s.28).

Toxuculuğun əsas sahələrindən olan xalçaçılıqda konkret nümunələrin öyrənilməsi maraq kəsb edir. M.Quliyev "Qazax" çeşni xalçasını təsvir edir. Müəllif zəmanəmizə qədər qorunub saxlanmış, Altayda arxeoloji qazıntı zamanı tapılmış, e.ə. V əsrə aid edilən Pazırıq xalçasındakı "qullabi ilmə" texnikasından hazırda Azərbaycanın bir çox xalçaçılıq rayonlarında istifadə edildiyini vurğulayır. Məqalədə naxışların tədqiqi nəticəsində Pazırıq xalçasını skiflərin Orta Asiyadan apardığı iddia olunur. Heredot, Ksenofan, Gteziy, Elian və s. antik müəlliflərin əsərlərində Azərbaycanın xalçaçılığı haqqında məlumatlar olduğunu bildirən alim Kültəpədə və Mingəçevirdə toxuculuq dəzgahının qalığının tapıldığını, I-VII əsrlərdə şaquli və üfüqi vəziyyətdə iki növ toxuculuq dəzgahının olduğunu və həmin dəzgahlardan indi də istifadə olunduğunu yazır (5). Yuxarıdakı fikirdən göründüyü kimi, M.Quliyev Azərbaycan xalçasının inkişafı

